# XALQIN VƏ VƏTƏNİN UĞUR FENOMENİ

**2020-ci ilin sentyabr ayının 27-də başlayan Vətən müharibəsində müzəffər ordumuz Ali Baş Komandan İlham Əliyevin misilsiz siyasi və hərbi zəkasının nəticəsi olaraq qarşısında duran vəzifənin öhdəsindən məharətlə gəldi. Hədəf ərazi bütövlüyümüzün bərpa edilməsi idi və Azərbaycan hərbi yolla qələbə qazandı. Torpaqlarımız 30 il davam etmiş səmərəsiz danışıqlar, müzakirə yolu ilə yox, hərbi yolla azad edildi. Döyüşlərlə, şəhidlərin qanı ilə ədalət bərpa olundu. Şəhidlərimizin qanı yerdə qalmadı. Düşməndən intiqamımız döyüş meydanında alındı. Vətən müharibəsi, eyni zamanda, cənab Prezident İlham Əliyevin peşəkar komandanlıq nümunəsi kimi hamını heyran qoydu. Vahid komandanlıq, planlaşdırma olmadan qələbənin əldə edilməsi mümkünsüz olardı. Bütün elementlərin düzgün kombinasiyası: kəşfiyyat, artilleriya, pilotsuz uçuş aparatları, pilotsuz kamikadzelər, xüsusi təyinatlılar, ordu korpusları - qələbəyə gətirib çıxardı. Cənab Prezidentimizin vurğuladığı kimi, əldə olunmuş böyük qələbədə bütün qoşun növlərinin öz payı olub.**

Bu qələbə elə-belə əldə edilmədi. Cənab Prezident İlham Əliyev illər uzunu dövlətimizin həm iqtisadi, həm siyasi sahədə gücünü səfərbər etdi, ardıcıl, davamlı, düşünülmüş siyasət apardı, ordunu, demək olar ki, yenidən qurdu, həm dünya çapında beynəlxalq müstəvidə, həm də regional layihələrin icrasında Ermənistanı təcrid etmək üçün böyük işlər gördü. Bizim müharibəmiz Vətən müharibəsi idi, Azərbaycan öz dədə-baba torpaqlarını işğalçılardan azad edirdi. Ermənistan isə işğalçılıq müharibəsi apardığına görə məğlubiyyətə məhkum idi.

Azərbaycan 44 gün ərzində mümkün olmayanı gerçəyə çevirdi. Bunu tək biz yox, beynəlxalq hərbi ekspertlər də deyirlər. Bizim apardığımız hərbi əməliyyat parası dünya ölkələrinin hərbi məktəblərində öyrənilir. Azərbaycan müharibə dövründə və sonra mümkün olan maksimum nəticəni əldə etdi.

Qardaş Türkiyə Cümhuriyyəti müharibənin ilk günlərindən Azərbaycanın yanında olmuş, bizim haqq işimizə dəstək vermişdir. Qardaş ölkənin Prezidenti Rəcəb Tayyib Ərdoğan verdiyi açıqlamalarda Türkiyənin Azərbaycanın yanında olduğunu, Azərbaycanın tək olmadığını bildirdi və dünya dövlətləri üçün "əgər Azərbaycanın haqq işinə müdaxilə etsəniz qarşınızda bizi görəcəksiniz" mesajını vermiş oldu. Qafqazda yeni bir reallıq yarandı. Bunu möhtərəm Prezidentimiz İlham Əliyev və Türkiyənin Prezidenti hörmətli Rəcəb Tayyib Ərdoğan yaratdılar, dünya güc mərkəzləri isə bu reallıqla barışmalı oldular. Azərbaycan və Türkiyə bütün dünyaya erməni faşizminin iç üzünü açıb göstərdilər. Azərbaycan hərb meydanında düşmənə ağır zərbələr vurduğu halda erməni faşizmi bir daha öz acizliyini göstərərək Gəncə, Tərtər, Goranboy, Bərdə, Ağcabədi və digər şəhərlərimizi qadağan edilmiş silahlardan atəşə tutaraq müharibə qanunlarını pozmuşdur. Respublika Prokurorluğu həmin cinayətlərlə əlaqədar Azərbaycan Respublikası CM-nin müvafiq maddələri ilə cinayət işləri başlamışdır, istintaq davam edir və Ermənistanın beynəlxalq məhkəmələrdə cavab verməsi üçün hüquqi baza yaradılır.

Hələ 2020-ci il fevralın 15-də Münhen Təhlükəsizlik Konfransında Ermənistan-Azərbaycan münaqişəsinə həsr olunmuş panel müzakirə baş tutmuşdu və həmin müzakirə vaxtı Azərbaycan Prezidenti bütün dünyaya artıq münaqişənin həllinin ciddi dəyişikliklə nəticələnəcəyi haqda bir mesaj vermişdi. Bundan başqa, cənab Prezidentin Valday klubu və Bişkekdə MDB dövlət başçılarının sammitindəki çıxışlarını da yada salmaq yerinə düşərdi. Cənab İlham Əliyevin "Qarabağ Azərbaycandır!" deməsindən bir ildən çox vaxt ötür. Bütün dünya bu şüarın reallaşdırılmasının şahidi oldu. İşğaldan azad olunan ərazilərdə, o cümlədən Füzuli, Zəngilan, Laçın və Cəbrayıl rayonlarında strateji əhəmiyyət kəsb edən obyektlərin açılışı və təməlqoyma mərasimlərinin keçirilməsi bütün beynəlxalq aləmə yönələn ciddi bir ismarıc idi. Erməni vandalizminin nəyə qadir olduğunu göstərməklə bərabər, cənab İlham Əliyev Azərbaycan tərəfinin dinc quruculuq işlərinin mahiyyətini çatdırdı, Qarabağın dünyanın istər iqtisadi, istər kommunikasiya, istər strateji cəhətdən ayrılmaz hissəsi olduğunu göstərdi.

Erməni vandallarının illər boyunca Zəngilan, Qubadlı və Laçın ərazilərində törətdiyi cinayətlərdən bəhs edilib, 44 günlük müharibədə dərsini alanların növbəti mərhələdə, beynəlxalq məhkəmədə də cəzalandırılacağı bildirilib. Azərbaycan Prokurorluğu tərəfindən bu istiqamətdə cinayət işlərinin istintaqı davam etdirilir. Prezident qalib ordunun və dövlətin rəhbəri olaraq Qarabağın yenidən cənnətə çevriləcəyini, bərpa işlərinin sürətlə həyata keçiriləcəyini əminliklə bəyan edib.

Əlbəttə, paralel olaraq işğaldan azad olunmuş torpaqlarımızda həm ekologiya, həm də kənd təsərrüfatı obyektləri bərpa olunur. Prezident İlham Əliyevin siyasətində də hər zaman sözü ilə əməlin vəhdət təşkil etdiyi, ən mühüm amillərin — təhlükəsizliyimizin, suverenliyimizin qorunması və hər bir vətəndaşımızın rifahı daim diqqət mərkəzindədir və bu istiqamətdə də atılan addımların zəruriliyinə tək Azərbaycan vətəndaşları deyil, bütün dünya şahid olur.

Dağlıq Qarabağdakı ermənilər artıq alışmağa başlayırlar ki, Azərbaycan Prezidenti və xanımı daima onların yanındadır - istənilən vaxt Şuşaya, Ağdama və digər işğaldan azad edilmiş ərazilərimizə gəlir, müxtəlif açılışlarda iştirak edirlər. Bütün bunlar onu göstərir ki, bir gün Prezident və xanımı Xankəndidə də olacaqlar. Ölkə Prezidenti bu səfərləri ilə həm Qarabağa sahiblik hüququmuzu möhkəmləndirir, həm də bütün qərarların Qarabağ üzərindən gerçəkləşdiriləcəyinin anonsunu verir. Çünki real məkandan belə fikirlərin səsləndirilməsi ermənilər üçün də işin nə dərəcədə ciddi olduğunu anlatmaq baxımından faydalıdır. Erməni xəstə təxəyyülü tarixdən oxuduğu mifoloji mətnlərdən ayrılaraq, real dünyanın mətnlərinə yönəlməlidir.

Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin zəfər qazanılmış torpaqlardan səsləndirdiyi fikirlər, bölgənin inkişafı ilə bağlı atılan addımlar və görüləcək işlərlə bağlı böyük layihələrin anonsu dünyanın diqqət mərkəzindədir.

Maraqlı detallardan biri də budur ki, ölkəsinə, siyasi opponentlərinə və maraqlı dövlətlərə mesaj vermək lazım olanda, Prezident məkan olaraq azad olunmuş torpaqları seçir. Onun Qarabağa səfərlərində diqqət çəkən çox məqamlar var. Ancaq ölkə başçısının Horadiz-Ağbənd dəmir yolu xəttinin təməlqoyma mərasimindən sonra Türk dünyasına yeni bir çıxış qapısından danışması, bu layihədən bəhrələnmək istəyənlərə mesajlarını verməsi mühüm məsələ idi.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, bölgəmizin uzunmüddətli inkişafı, sabitliyin təmin edilməsi və müharibə risklərinin sıfıra endirilməsi üçün bölgədə transmilli nəqliyyat layihələrinin xüsusi rolu vardır və iştirak edən bütün ölkələr bundan faydalanacaqlar: "Azərbaycan Naxçıvanla, Türkiyə ilə birləşir. Eyni zamanda, Rusiyadan Ermənistana dəmir yolu xətti açıla bilər. Bu xətt yalnız Azərbaycan ərazisindən keçə bilər. Həmçinin Rusiya ilə İran arasında Naxçıvan ərazisi ilə dəmir yolu bağlantısı olacaq. İran ilə Ermənistan arasında da dəmir yolu bağlantısı baş tutacaq. Türkiyə ilə Rusiya arasında dəmir yolu bağlantısı olacaq. Yəni, bütün bölgə ölkələri bundan ancaq xeyir götürəcəklər".

Cənab Prezident fevralın 26-da yerli və xarici jurnalistlər üçün videoformatda mətbuat konfransı keçirərkən 4 saatdan çox bir müddətdə 35 media qurumunun 50-dək sualını cavablandırdı. Britaniyadan olan jurnalist Aynur Tattaral mətbuat konfransında dedi ki, 25 ildir jurnalistika ilə məşğuldur, amma hər hansı prezidentin 4 saatda bu cür mətbuat konfransı keçirməsinin şahidi olmayıb.

Ölkə Prezidenti 44 günlük savaşın nəticəsində sarsıdıcı zərbələr alan, ancaq yenidən baş qaldırmaq istəyənlərə növbəti xəbərdarlığı da məhz döyüş meydanından edib, eynilə Şuşa səfəri zamanı olduğu kimi, dövlətimizin başçısı bununla da qarşı tərəfi həmin dərsləri unutmamağa çağırıb. Cənab Prezident demişdir: "Bu gün də Ermənistanda revanşist qüvvələr baş qaldırmağa çalışır. Azərbaycanı növbəti təxribatlarla, növbəti müharibə ilə hədələməyə çalışırlar. Onlar anlamalıdırlar ki, biz hər şeyə diqqət yetiririk, hər şeyə nəzarət edirik və heç vaxt imkan verə bilmərik ki, erməni faşizmi bir daha başını qaldırsın".

Sonda, olmuş bir hadisəni olduğu kimi qeyd etmək istəyirəm. Sosial şəbəkədə Şuşanın alınması ilə əlaqədar cənab Prezident İlham Əliyevin çıxışından bir hissə qoyulmuşdur. Həmin videoçarxa 1 milyondan çox insan baxmışdır. Mən də bir Azərbaycan vətəndaşı kimi videoçarxa şərh yazanda şərhlərin çoxunun rus dilində və digər dövlətin vətəndaşları tərəfindən yazıldığını müşahidə etdim. Onların hamısı bir mövzunu ifadə edirdi. Ukraynadan olan yaşlı bir qadının şərhi həmin mövzunu daha gözəl ifadə edirdi. O yazmışdır: "Azərbaycan xalqı çox xoşbəxt xalqdır. 90-cı illərin çətin vaxtlarında sizin Heydər Əliyeviniz Azərbaycanı düşdüyü ağır vəziyyətdən çıxartdı. İndi isə onun oğlu İlham Əliyev kimi dünya çapında öz dəst-xətti olan bir lideriniz var və o, sizi Azərbaycanın xoşbəxt gələcəyinə aparır".

**Elşən ABDULLAYEV,**
**Ucar rayon prokuroru,**
**baş ədliyyə müşaviri.**